USAID
AMERİKA XALQINDAN

EDF SBIIYF

# BİZNES ÜÇÜN MALİYYƏ MƏNBƏLƏRİ

## mövzusu üzrə video dərs

**İLKIN QARAYEV**

**Bakı - 2020**

# MALİYYƏ MƏNBƏLƏRİ

**İstənilən sahibkarlıq fəaliyyətini başlamaq və ya davam etdirmək üçün maliyyə resurslarına ehtiyac vardır. Adətən biznesə başlamaq üçün ya şəxsi maliyyə imkanlarından, ya da dost-tanışların və ya qohumların maliyyə resurslarından istifadə olunur.**

# MALİYYƏ RESURSLARININ NÖVLƏRİ

**Mənbəyinə görə maliyyə resurslarının iki növünü qeyd etmək olar:**

- **Daxili resurslar;**
- **Xarici resurslar.**



# MALİYYƏ RESURSLARININ NÖVLƏRİ

**Biznesi maliyyələşdirmə mənbələri**

- **Daxili mənbələr**
  - Şəxsi pul vəsaitləri
  - Qiymətli kağızlar
  - Daşınmaz əmlak
  - İntellektual əmlak
  - Müəssisənin gəlirləri
- **Xarici mənbələr**
  - İnvestisiya
  - Dövlət vəsaitləri (krediti)
  - Vətəndaşların vəsaitləri
  - Maliyyə-kredit təşkilatlarının vəsaitləri
  - Qeyri-maliyyə təşkilatlarının vəsaitləri
  - Lizinq

# DAXİLİ MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

**Biznesin təşkil olunmasına tələb olunan əsas, bir çox hallarda isə yeganə daxili maliyyələşdirmə mənbəyi şəxsi vəsaitlərdir (qənaətlər).**
**Şəxsi vəsaitlər dedikdə - pul vəsaitləri, qiymətli kağızlar, daşınmaz və intellektual əmlak nəzərdə tutulur.**



# XARİCİ MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

**İnvestisiya - gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.**



# XARİCİ MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

**Dövlət vəsaiti (krediti) - dövlət tərəfindən verilir və bir qayda olaraq məqsədli səciyyə daşıyır (müəyyən növ məhsulun istehsalının təşkilinə, konkret iqtisadi inkişaf məqsədləri üçün). Özəl bank kreditləri ilə müqayisədə dövlət vəsaiti (krediti) güzəştli olur, uzun müddətə, ayrı-ayrı hallarda, hətta faizsiz də verilə bilər.**



# XARİCİ MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

**Vətəndaşların vəsaitləri – müxtəlif vətəndaşların bir növ kooperasiya qaydaları çərçivəsində əməkdaşlığı vasitəsilə cəlb edilən maliyyə vəsaitləridir.**



# XARİCİ MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

**Maliyyə-kredit təşkilatlarının (bank, mikromaliyyə təşkilatı, kredit ittifaqı, kənd təsərrüfatı kredit kooperativi, sahibkarlığa kömək fondu) vəsaitləri və ya Kredit** - bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir.

# XARİCİ MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

**Qeyri-maliyyə təşkilatlarının vəsaitləri** – qeyri-maliyyə təşkilatları dedikdə ictimai hərəkatlar və birliklər, qeyri-kommersiya təşkilatları, fondlar və mənzil sahibkarları ortaqlıqları başa düşülür. Bu təşkilatlar maliyyə vəsaitlərini əsasən qrant, maliyyə yardımı və s. kimi təqdim edirlər.



# XARİCİ MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ

**Lizinq** – özündə bank krediti, icarə, investisiya elementlərini cəmləşdirən münasibətlər kompleksidir. Lizinq, lizinq verənlə lizinq alan arasında əksər hallarda uzunmüddətli xarakter daşıyan maliyyə sazişidir.



# DİQQƏTİNİZƏ GÖRƏ ÇOX SAĞ OLUN!

